Elnur Qara oğlu ALLAHVERDİYEV
Azərbaycan Kooperasiya Universitetinin dosenti,
iqtisad üzrə fəlsəfə doktoru
E-mail: allahverdiyev.elnur33@mail.ru
https://doi.org/10.30546/4.71.73001.2024.02.014

QLOBAL TRANSFORMASİYALAR ŞƏRAİTİNDƏ ORQANİK KƏND TƏSƏRRÜFATININ İNKİŞAFININ NƏZƏRİ ASPEKTLƏRİ

Xülasə

Tədqiqatın məqsədi qlobal transformasiyalar şəraitində orqanik kənd təsərrüfatının inkişafının nəzəri aspektlərinin tədqiqindən ibarətdir. Orqanik kənd təsərrüfatının inkişaf problemləri açıqlanmış və onların həll edilməsi mexanizmləri verilmişdir. Müasir dövrdə orqanik kənd təsərrüfatının inkişafını təmin edən konseptual yanaşmalar ümumiləşdirilmişdir. Qlobal çağırışlardan irəli gələn vəzifələr və prioritetlər əsas götürülməklə, orqanik kənd təsərrüfatının daha intensiv şəkildə inkişaf etdirilməsinin vacibliyi əsaslandırılmışdır.

Tədqiqatın metodologiyası əsas etibarı ilə elmi abstraksiya, analiz, sintez, müqayisə və ümumiləşdirmə kimi metodlardan formalaşdırılmışdır. Eyni zamanda, orqanik kənd təsərrüfatının inkişaf etdirilməsi ilə bağlı müxtəlif tədqiqatçıların elmi əsərlərindəki yanaşmalara da diqqət göstərilmişdir.

Tədqiqatın tətbiqi əhəmiyyəti nöqteyi-nəzərindən məqalədə alınmış elmi-praktiki yeniliklərdən müasir dövrdə qlobal çağırışlar kontekstində ölkənin kənd təsərrüfatının inkişaf etdirilməsi və xüsusilə, orqanik kənd təsərrüfatı strukturunun yaradılması tədbirlərində istifadə edilməsi ilə bağlıdır.

Tədqiqatın nəticələri baxımından isə hazırkı qlobal silkələnmələr və yeni reallıqlar şəraitində orqanik kənd təsərrüfatının təşkili və inkişafının sürətləndirilməsi ilə bağlı məqsədli dövlət proqramlarının hazırlanması, fəaliyyət mexanizmlərinin tətbiqi istiqamətləri daha çox cəlbedici görünür.

Tədqiqatın orjinallığı və elmi yeniliyi baxımından qeyd etməliyik ki, əsas elmi yenilik kimi hazırkı mürəkkəb bir dövrdə, həmçinin dünyada qlobal ərzaq təhlükəsizliyi probleminin kəskinləşdiyi bir şəraitdə orqanik kənd təsərrüfatının daha səmərəli təşkili ilə bağlı dövrün tələblərinə uyğun nəzəri-metodoloji baxışların müəyyənləşdirilməsi və bunların dövlət siyasəti əsasında yer almasının əsaslandırılmasıdır. Ölkənin resurs potensialı və iqtisadi inkişaf modelinin prioritetləri nəzərə alınmaqla, müasir orqanik kənd təsərrüfatı modelinə konseptual yanaşmalar təmin olunmuş və praktiki fəaliyyət istiqamətlərinin əhəmiyyətli hissəsi müəyyənləşdirilmiş, bunlarla bağlı tövsiyələr və təkliflər hazırlanmışdır.

Açar sözlər: kənd təsərrüfatı, orqanik kənd təsərrüfatı, orqanik kənd təsərrüfatı məhsulları, kənd təsərrüfatının səmərəlilik problemləri, kənd təsərrüfatının inkişaf perspektivləri, qlobal transformasiyalar, ölkənin ərzaq təhlükəsizliyi problemi, qlobal ərzaq təhlükəsizliyi problemləri.

Giriş

Müasir dövrdə dünyada kənd təsərrüfatı istehsalının müxtəlif üsulları mövcuddur. Alternativ əkinçilik sistemləri arasında ən geniş yayılmışı dünyanın 180-dan çox ölkəsində tətbiq edilən orqanik kənd təsərrüfatıdır. Ekoloji cəhətdən təmiz məhsulların istehsalının inkişafı hazırda ümumi qlobal tendensiyadır. XX əsrin ikinci yarısında kənd təsərrüfatının kimyəviləşdirilməsi intensivləşdi ki, bu da bitkilərin məhsuldarlığının və heyvandarlığın əhəmiyyətli dərəcədə artmasına səbəb oldu. Bu prosesin mənfi nəticəsi bitkiçilik məhsullarının nitratlar və pestisidlərlə, heyvandarlıq məhsullarının isə hormonlar və antibiotiklərlə çirklənməsi olmuşdur. Nəticədə qlobal aqro-ərzaq bazarı buna inkişaf etmiş ölkələrdə orqanik məhsullara tələbatın əhəmiyyətli dərəcədə artması ilə cavab verdi və bu proses bu günə qədər davam edir. Orqanik kənd təsərrüfatı ənənəvi kənd

təsərrüfatı ilə müqayisədə torpağın keyfiyyətini yaxşılaşdırmaqla məhsuldarlığı tədricən artırmağa kömək edir, habelə ətraf mühiti qorumaq və keyfiyyətli məhsul istehsal etməklə daha çox gəlir əldə etmək üstünlüyünü təmin edir [2].

Son illər ərzində orqanik kənd təsərrüfatının davamlı artımına, bu sistemin ekoloji və sosial-iqtisadi problemlərin həllinə imkan verən bir çox üstünlüklərə malik olmasına baxmayaraq, istehlakçıların orqanik məhsullara tələbatı ödənilmir. Bu problemi həll etmək üçün, ilk öncə, orqanik kənd təsərrüfatının nəzəri və metodoloji elmi əsaslandırılması və kənd təsərrüfatı istehsalçılarının orqanik əkinçilik üsullarına transformasiyasının iqtisadi mexanizmlərinin hazırlanması zəruridir.

Qlobal kontekstdə orqanik kənd təsərrüfatının inkişafına nəzəri yanaşmaların tədqiqi

Qeyd edək ki, kənd, meşə təsərrüfatlarında və balıqçılıqda orqanik sektorun sürətli və səmərəli inkişafı elmi-nəzəri bazaya əhəmiyyətli investisiyalar tələb edir. “Orqanik kənd təsərrüfatı”, “Orqanik əkinçilik”, “Ekoloji kənd təsərrüfatı”, “Orqanik məhsul bazarı” kimi iqtisadi kateqoriyaların mahiyyətinin aydınlaşdırılması, eləcə də iqtisadi, ekoloji və sosial komponentlər nəzərə alınmaqla elmi cəhətdən əsaslandırılmış yeni orqanik istehsal texnologiyalarının axtarışı və tətbiqi məsələləri çox aktualdır. Bu, tədqiqatın mövzusunun ümumi nəzəri və metodoloji aspektlərdə aktuallığını müəyyənləşdirir. “Orqanik kənd təsərrüfatı” anlayışı orqanik məhsulların mahiyyətini, istehsal olunan ənənvi məhsullar üzərində üstünlüklərini başa düşmək üçün açardır. Orqanik kənd təsərrüfatı, ilk öncə, kənd təsərrüfatı elmində və təcrübəsində dərin köklərə malikdir. Lakin orqanik kənd təsərrüfatı istehsalı müstəqil bir istiqamət kimi yalnız XX əsrin əvvəllərində, ilk öncə, Avropada, eləcə də ABŞ-da meydana çıxmağa başlamışdır [6, s.72]. Bundan əlavə, “Orqanik kənd təsərrüfatı” termini ilk dəfə 1939-cu ildə L. Nortborn tərəfindən təqdim edilmiş və 1940-cı ildə onun “Yerin qayğısına qal” adlı kitabı nəşr edilmiş və burada orqanik təsərrüfat vahid orqanizm kimi qəbul edilmişdir. Elə həmin il Albert Hovardın kimyəvi maddələrin bitki və heyvanların vəziyyətinə mənfi təsirini təsvir edən və ilk dəfə torpağın vəziyyəti ilə insanların sağlamlığı arasında əlaqəni sübut edən “Kənd təsərrüfatının vəsiyyəti” kitabı nəşr olundu. II Dünya müharibəsindən sonra dünyanın ucuz qidaya ehtiyacı oldu və bu, kənd təsərrüfatı istehsalının geniş miqyaslı kimyəviləşməsinə səbəb oldu. 1962-ci ildə bioloq Reyçel Karson məşhur “Səssiz bahar” kitabını nəşr etməklə kimyəvi birləşmələrin (pestisidlər və başqaları) ətraf mühitə və insan sağlamlığına zərərli təsirini sübut etdi. XX əsrin 70-ci illərində dünyada orqanik kənd təsərrüfatının inkişafına təcili ehtiyac yarandı və bunun dərk edilməsi ilə sənayenin tənzimlənməsi sistemi üçün tənzimləmə vasitələrinin formalaşması mərhələsi başladı [11, s.458; 7, s.171].

Məlumdur ki, 1963-cü ildə orqanik kənd təsərrüfatının dövlətlərarası tənzimlənməsinin formalaşması və inkişafı ilə əlaqədar olaraq BMT tərəfindən Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı (FAO), eləcə də Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) tərəfindən beynəlxalq təsis və proqram sənədlərinə uyğun olaraq, qida məhsullarının xüsusi növlərinə dair tələbləri işləyib hazırladılar ki, həmin tələblər toplu olaraq Codex Alimentarius (latınca Codex Alimentarius - qida qanunları toplusu) adlanır. 1999-cu ildə Komissiya orqanik məhsullar istehsalı, emalı, etiketlənməsi və satışına dair tələbləri təsdiq etmişdir. Codex Alimentarius-a görə: “Orqanik kənd təsərrüfatı biomüxtəliflik, bioloji dövrlər və torpağın bioloji fəaliyyəti daxil olmaqla aqroekosistemi qoruyan vahid istehsalın idarə edilməsi sistemidir” [6, s.73]. BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) terminologiyasına görə, orqanik əkinçilik: “bioloji müxtəliflik, bioloji dövrlər və torpağın bioloji fəaliyyəti daxil olmaqla kənd təsərrüfatı ekosisteminin rifahını stimullaşdıran və gücləndirən inteqrasiya olunmuş istehsalın idarə edilməsi sistemidir” [5, s.48].

Orqanik kənd təsərrüfatının mahiyyətinin üzə çıxarılmasına həsr olunmuş yerli və xarici elmi nəşrlərin təhlili orqanik kənd təsərrüfatı ilə bağlı termin və tərifl ərdə birliyin olmadığını göstərir. Məsələn, Avstraliya, İngiltərə, ABŞ və MDB ölkələrində orqanik kənd təsərrüfatı termini, Kanadada biodinamik kənd təsərrüfatı, Avstriya, Almaniya, İsveçrə, İtaliya və Fransada bioloji kənd təsərrüfatı, Finlandiyada təbii, İsveç, Norveç, Danimarka, İspaniyada ekoloji, Azərbaycan və Estoniyada ekoloji cəhətdən təmiz kənd təsərrüfatı istifadə olunur. Onların fərqlərini nəzərə almadan, əsasən sinonim kimi işlətdiklərini nəzərə alaraq, “orqanik kənd təsərrüfatı” anlayışının

tərifləri formalaşdırmaq olar. Orqanik kənd təsərrüfatının inkişaf tarixi göstərir ki, 1972-ci ildə Versalda Beynəlxalq Orqanik Kənd Təsərrüfatı Hərəkatı Federasiyası (IFOAM) yaradılıb və o, bu günə qədər bütün dünya ölkələrində məlumat yaymaqla və orqanik kənd təsərrüfatını tətbiq etməklə yanaşı, ekoloji təmiz kənd təsərrüfatının olduğunu hesab edir. IFOAM-a görə, orqanik kənd təsərrüfatı torpağın, ekosistemin və insanların sağlamlığını qoruyan istehsal sistemidir. İFOAM ekspertlərinin fikrincə, orqanik kənd təsərrüfatı ekoloji proseslərə əsaslanmalı və müəyyən ərazinin bioloji müxtəlifliyinin qorunmasını təmin etməlidir. Verilmiş digər tərifl ərdən də göründüyü kimi, “orqanik kənd təsərrüfatı”nın mahiyyəti açıqlanarkən kənd təsərrüfatının biolojiləşdirilməsi və yaşıllaşdırılması nəzərə alınmaqla sağlam qidalanmanın aqronomik aspektləri və problemlərinə əsas diqqət yetirilir.

Orqanik hərəkatın nümayəndələri və İFOAM üzvləri tərəfindən formalaşdırılan konseptual aparat 1980-ci illərdə bəzi Avropa ölkələrində qəbul edilmiş orqanik kənd təsərrüfatı haqqında ilk qanunvericiliyin əsas tərifl ərinin əsaslandırılmasına böyük ölçüdə kömək etdi. Bu sahədə ilk olaraq Fransa və İspaniya öz orqanik qanunvericiliklərini formalaşdırmağa başladılar.

Bəzi beynəlxalq təşkilatlar orqanik kənd təsərrüfatına cədvəl 1-də göstərilən tərifl əri vermişdir.

Cədvəl 1.

Orqanik kənd təsərrüfatı konsepsiyasının məzmunu

Təşkilatlar	Təşkilatların verdiyi tərif
İFOAM	Orqanik kənd təsərrüfatı torpaqların, ekosistemlərin və insanların sağlamlığını dəstəkləyən istehsal sistemidir. Yerli şəraitə xas olan ekoloji proseslərdən, biomüxtəliflikdən və təbii dövrlərdən asılıdır, əlverişsiz resurslardan istifadədən yayınır. Orqanik kənd təsərrüfatı ətraf mühiti yaxşılaşdırmaq və yuxarıda göstərilənlərin hamısı üçün ədalətli münasibətləri və layiqli həyat səviyyəsini təşviq etmək üçün innovasiya və elmi birləşdirir.
FAO, ABŞ-ın Kənd Təsərrüfatı Departamenti	Orqanik əkinçilik bioloji müxtəliflik, bioloji dövrlər və torpağın bioloji aktivliyi daxil olmaqla kənd təsərrüfatı ekosisteminin rifahını stimullaşdıran və gücləndirən inteqrasiya olunmuş istehsalın idarə edilməsi sistemidir. Orqanik kənd təsərrüfatı biomüxtəlifliyi, bioloji dövranı və torpağın bioloji aktivliyini qoruyan və gücləndirən ekoloji istehsal sistemidir. O, təsərrüfatdan kənar resurslardan minimal istifadəyə və ekoloji harmoniyanı qoruyan və təkmilləşdirən texnologiyalara əsaslanır.
Codex Alimentarius Komissiyası	Orqanik əkinçilik sintetik gübrələrin, pestisidlərin və geni dəyişdirilmiş orqanizmlərin istifadəsini aradan qaldıran, havanın, torpağın və suyun çirklənməsini minimuma endirən, birliklərinin, heyvanların və insanların sağlamlıq və məhsuldarlıq səviyyələrini optimallaşdıran kompleks istehsalın idarə edilməsi sistemidir.
Aİ-nin Ümumi Orqanik Standartları	Orqanik istehsal ətraf mühitin mühafizəsini, yüksək biomüxtəliflik səviyyəsini, təbii ehtiyatların qorunmasını birləşdirən kənd təsərrüfatı məhsulları və qida istehsalının idarə edilməsi üçün ayrılmaz bir sistemdir və müəyyən istehlakçı qruplarının təbii yolla istehsal və emal olunan məhsulları almaq istəyinə cavab verən istehsal üsuludur

Mənbə: *müxtəlif ədəbiyyat mənbələri əsasında müəllif tərəfindən ümumiləşdirilmişdir.*

“Orqanik kənd təsərrüfatı” ilə oxşar olan anlayış “ekoloji kənd təsərrüfatı” anlayışıdır. Ekoloji təmiz kənd təsərrüfatı məhsullarının müəyyən hissəsini də orqanik məhsullar təşkil edir [3]. Bu, yalnız bilavasitə heyvandarlıq (süd, ət, yumurta) və bitkiçilik məhsullarına xasdır. Orqanik məhsul istehsalı gübrələrin, pestisidlərin və kimyəvi yem əlavələrinin imtinasına əsaslanan məsuliyyətli əkinçilik və heyvandarlığı əhatə edir [1, s.54]. Orqanik məhsullar dedikdə, mineral gübrələrdən və digər sintez edilmiş kimyəvi maddələrdən istifadə edilmədən əldə edilmiş məhsullar başa düşülür.

Bunun üçün “orqanik”, “bioloji”, “ekoloji cəhətdən təmiz” kimi müxtəlif terminlər mövcuddur. Lakin ümumi olanı bitkilərin becərilməsində və heyvanların yetişdirilməsində yalnız təbii maddələrdən istifadə etməkdir.

Orqanik təmiz kənd təsərrüfatı məhsulları üçün hərəkat tez bir zamanda cəmiyyətin geniş təbəqələri arasında dəstək tapmış və sonra dövlət siyasətində öz əksini tapmışdır. Dünyanın orqanik kənd təsərrüfatı mərkəzlərindən olan Avropa (əsasən Aİ ölkələri), Şimali Amerika (ABŞ və Kanada), Cənub-Şərqi Asiya (Yaponiya, Çin, Hindistan), Okeaniya (Avstraliya və Yeni Zelandiya), Latın Amerikası (əsasən Braziliya, Argentina), Afrika (ilk öncə, Uqanda, Tanzaniya) - istehsal olunan məhsulların növü, istifadə olunan texnologiyalar və motivasiyanın orijinallığı ilə fərqlənən özünəməxsus sosial-iqtisadi xüsusiyyətlərə malikdir. Aİ ölkələrində orqanik kənd təsərrüfatı 1990-1992-ci illərdə kənd təsərrüfatı iqtisadiyyatının müstəqil sektoru kimi aydın şəkildə tanınmağa başlamışdır. Kənd təsərrüfatının intensivləşməsinin mənfi ekoloji nəticələri, cəmiyyətdə artan narahatlığa, ərzaq təhlükəsizliyinin pozulmasına, ÜDM-də kənd təsərrüfatının payının və təsərrüfatların sayının azalmasına səbəb olmuşdur [10, s.80].

Biz daha çox “orqanik kənd təsərrüfatı” terminindən istifadə edəcəyik. Regionlardan və ya ölkədən asılı olaraq orqanik istehsal termininin işlədildiyi mənalara diqqət yetirək: “orqanik istehsal” - ingilisdilli ölkələr, ABŞ, Rusiya Federasiyası və Ukrayna; “ekoloji istehsal” - Macarıstan, Danimarka, İspaniya, Litva, Polşa, Slovakiya, Çexiya, İsveç; “bioloji istehsal” – Almaniya, Yunanıstan, Gürcüstan, İtaliya, Latviya, Hollandiya, Portuqaliya, Fransa; “təbii istehsal” – Finlandiya. Terminologiyada fundamental fərqlər yoxdur, əsas odur ki, bu cür fəaliyyətlər nəticəsində aydın tənzimləmə tələblərinə cavab verən orqanik məhsullar əldə edilir. Bu gün bütün dünyada orqanik kənd təsərrüfatı istehsalı fəal şəkildə inkişaf edir. Qanunvericilər, ilk öncə, inkişaf etmiş ölkələrdir: ABŞ, Almaniya, İsveç, Danimarka, Hollandiya və s. Müstəqillik əldə etdikdən sonra Litvada, Estoniyada, Latviyada da orqanik təsərrüfatlar yarandı. Son illərdə bu istiqamət Ukrayna və Rusiyada inkişaf edib. Orqanik kənd təsərrüfatı istehsalını müəyyən edən əsas ideyalara geniş mənada aşağıdakılar daxildir: kənd təsərrüfatı istehsalının təbiət qanunlarına uyğun aparılması; təsərrüfatda qida maddələrinin ən qapalı dövrünə nail olunması; torpağın münbitliyinin saxlanılması və artırılması; heyvanların növ xüsusiyyətlərinə və ehtiyaclarına uyğun saxlanılması; yerüstü və yeraltı suların mühafizəsi; növlərin biomüxtəlifliyinin saxlanması və mühafizəsi. Bu ideologiyaya uyğun olaraq, orqanik kənd təsərrüfatı istehsalına aşağıdakı komponentlər daxil edilməlidir: icazə verilən və qadağan olunmuş dərman vasitələrinin milli reyestri; sertifikatlaşdırma və təftiş nəzarəti (audit) sistemi; məhsulların və ya bazarların satışı üçün müvafiq sistem; heyvandarlığın məcburi inkişafı; orqanik və təbii mineral gübrələrin üstünlük təşkil etməsi; dayanıqlı landşaftların formalaşdırılması; məhsulun etiketlənməsi üçün bioloqların istifadəsi [8, s.187].

“Orqanik əkinçilik” ifadəsi isə əkinçilik sisteminin işləmə prosesini – istifadə olunan gübrələrin qeyri-kimyəvi təbiətini təsvir etmək üçün istifadə edilmişdir. 1940-cı illərdən etibarən orqanik kənd təsərrüfatının qabaqcılları orqanik hərəkatı fəal şəkildə inkişaf etdirdilər - ideyanı populyarlaşdırdılar, təcrübə mübadiləsi apardılar, orqanik istehsal üzrə elmi və praktiki dərsliklər nəşr etdilər və nəhayət, yaratdıqları İFOAM təşkilatı orqanik əkinçilik prinsiplərinə əsaslanan ekoloji, sosial və iqtisadi cəhətdən sağlam sistemləri mümkün qədər geniş şəkildə tətbiq etməyi qarşısına məqsəd qoymuşdur. O dövrdə “orqanik əkinçilik” termini orqanik hərəkatın əsas konsepsiyasını və inkişaf miqyasını getdikcə daha az səciyyələndirdiyindən, “orqanik kənd təsərrüfatı” (“orqanik kənd təsərrüfatı” və ya “orqanik kənd təsərrüfatı istehsalı”) tərifi çox populyarlaşdı.

Müasir dövrdə orqanik kənd təsərrüfatının inkişafının formalaşdırılmasına dair konseptual fəaliyyət istiqamətləri

Orqanik kənd təsərrüfatının mühüm məqsədi kənd təsərrüfatı ekosistemində təbii tənzimləmə mexanizmlərindən tam istifadə etməkdir. Orqanik kənd təsərrüfatının əsas məqsədi xarici resurslara güvənməkdənsə, daxili resurslar hesabına istehsal qurmaq olmalıdır. Orqanik kənd təsərrüfatı istehsalçıları anlamalıdır ki, həmin sahə sadəcə üzvi gübrələri orqanik alternativlərlə əvəz etmək demək deyil. Təəssüflər olsun ki, bir çox üzvi toxum yetişdiriciləri öz təsərrüfat resurslarından

istifadə etməkdənsə, xaricdən orqanik resurslar əldə etməyə səy göstərirlər [4, s.42]. 1972-ci ildə orqanik əkinçilik təcrübələrini təşviq etmək üçün yaradılmış İFOAM orqanik kənd təsərrüfatının 4 prinsipinə əsaslanır: sağlamlıq prinsipi, ekologiya prinsipi, ədalət prinsipi və qayğı prinsipi. Təşkilatın orqanik istehsal və emal sistemləri üçün IFOAM standartları sosial dayanıqlı və iqtisadi cəhətdən faydalı ticarəti təşviq edir, ətraf mühitə fayda verir və bütün dünyada istehlakçılar arasında inam yaradır.

“Sağlamlıq prinsipi”nə uyğun olaraq, orqanik kənd təsərrüfatı torpağın münbitliyinin, bitkilərin, heyvanların, bəşəriyyətin və planetin vahid və bölünməz bütövlükdə saxlanmasına töhfə verir. Sağlamlıq təkcə fərdə deyil, bütövlükdə ekosistemlərin və cəmiyyətin sağlamlığına təsiri baxımından nəzərə alınır. Əkinçilik, emal, paylama və ya istehlakda orqanik kənd təsərrüfatının rolu torpaqdakı ən sadə mikroorqanizmlərdən tutmuş insanlara qədər ekosistemlərin və orqanizmlərin sağlamlığını dəstəkləmək və yaxşılaşdırmaqdır. Orqanik kənd təsərrüfatı xəstəliklərin qarşısını almağa və əhalinin rifahını yaxşılaşdırmağa kömək edən yüksək keyfiyyətli qida istehsalını nəzərdə tutur. Orqanik əkinçilikdə “ekologiya prinsipi” təbii ekoloji sistemlər və dövrlər ideyasını dəstəkləyir. Orqanik əkinçilikdə məhsul istehsal etmək üçün təbii sistemlərdən istifadə prinsipləri təbii dövrlərə və tarazlıqlara riayət etməni nəzərdə tutur. Orqanik kənd təsərrüfatında materialların və enerjinin təkrar istifadəsi, təkrar emalı və səmərəli idarə edilməsi yolu ilə ətraf mühitə təsir azaldılmalıdır. Habelə, orqanik kənd təsərrüfatında bütün proseslərin idarə edilməsi yerli şəraitə, ətraf mühitə, mədəniyyətə və ənənələrə uyğunlaşdırılmalıdır. “Ədalət prinsipi”nə görə, orqanik kənd təsərrüfatı insanlar və digər canlılarla münasibətlərdə bütün dünya üçün ümumi olan obyektivlik, hörmət, ədalətlilik və iqtisadi münasibətlərlə xarakterizə olunur. Orqanik kənd təsərrüfatı ilə məşğul olan bütün iştirakçılar istehsalçılara, emalçılara, treyderlərə və istehlakçılara eyni yüksək həyat səviyyəsini, ərzaq təhlükəsizliyini və yoxsulluğun azaldılmasını təmin edən bəşəriyyət prinsiplərinə əməl etməlidir. İstehsalda və istehlakda istifadə olunan təbii sərvətlərə gələcək nəsillərin maraqları nəzərə alınmaqla sosial və ekoloji ədalət prizmasından baxılmalıdır. Orqanik əkinçilikdə “qayğı prinsipi” bütün iştirakçıların daxili və xarici ehtiyaclarına və şərtlərinə cavab verən sistemə əsaslanmalıdır. Onlar səmərəliliyi artıra və məhsuldarlığı yaxşılaşdıra bilərlər, lakin onların sağlamlığı və rifahı təhlükəyə atılmamalıdır. Buna praktiki təcrübə, toplanmış biliklər və yerli ənənələr nəzərə alınmaqla aparılan elmi tədqiqatlar zəmanət verir [9, s.118].

Yuxarıda göstərilən normativ sənədlərdə olan tərifl ərin təhlili, bu mürəkkəb konsepsiyaya baxışların kifayət qədər fərqləndirilməsinin tam mənzərəsini təmin etmir. Dünyanın müxtəlif ölkələrinin normativ-hüquqi aktlarında orqanik kənd təsərrüfatına tərifl ərini təhlil edərək belə nəticəyə gələ bilərik ki, bu konsepsiyanın universal və hərtərəfli tərifi yoxdur. Bu fenomenin tam başa düşülməsi çoxlu sayda amillərdən asılıdır: biznes şəraiti, ölkənin coğrafi mövqeyi, kənd təsərrüfatı sənayesinin və bütövlükdə milli iqtisadiyyatın inkişaf səviyyəsi və s. Odur ki, orqanik kənd təsərrüfatı aqrotexnoloji məhsuldarlığın artırılması, bazar tələbatının ödənilməsi məqsədilə kənd təsərrüfatı məhsullarının ekoloji, sosial və iqtisadi cəhətdən səmərəli və şəffaf istehsalının təmin edilməsi məqsədilə bioloji amillərdən maksimum istifadə etməklə sahibkarlıq subyektləri tərəfindən həyata keçirilən tarazlaşdırılmış və sertifikatlaşdırılmış kənd təsərrüfatı istehsalı sistemidir.

Nəticə

Beləliklə, orqanik kənd təsərrüfatı kifayət qədər mürəkkəb və çoxölçülü bir anlayışdır, öyrənilməsi və konkretləşdirilməsi uzun onilliklər ərzində davam edir. Bu anlayışın daha dəqiq tərifinin obyektiv ehtiyacı ictimaiyyətin və qanunvericilik sahəsinin nümayəndələri tərəfindən onun mahiyyətinin daha aydın başa düşülməsi ehtiyacı ilə əlaqədardır. Orqanik kənd təsərrüfatının formalaşdırılması və inkişaf etdirilməsi üzrə bir qrup ümumiləşdirmələr aparmışıq:

– Orqanik məhsulların keyfiyyəti və faydaları haqqında ictimaiyyətin məlumatlılıq səviyyəsi, onun effektivliyi orqanik kənd təsərrüfatı sferasının hüquqi tənzimlənməsindən asılıdır;

– Fikrimizcə, orqanik kənd təsərrüfatı təkcə təmiz məhsulların istehsalı prosesi deyil, habelə təbii harmoniyanı və insan sağlamlığını qorumaq üçün ətraf mühitin idarə edilməsi sisteminə uyğun olaraq müəyyən ərazinin təbii və iqlim şəraitinə uyğunlaşdırılmış təsərrüfat sistemidir;

– Tənzimləyici, elmi-nəzəri təhlillərə əsaslanaraq deyə bilərik ki, orqanik kənd təsərrüfatı enerjiyə və resursa qənaət edən istehsal sahəsidir, cəmiyyətin yüksək keyfiyyətli və təhlükəsiz qida ilə təmin edilməsinə, biomüxtəlifliyin yaxşılaşdırılması və milli iqtisadiyyatın davamlı inkişafı üçün kənd yerlərinin inkişafına, ətraf mühitin qorunmasına yönəlmişdir və s.

ƏDƏBİYYAT

1. Abbasov, A.F. Orqanik kənd təsərrüfatı məhsullarının istehsalı və satış bazarları. Kənd təsərrüfatının iqtisadiyyatı, – 2020. № 2 (32), – s.53-56.
2. Azərbaycanda ekoloji təmiz kənd təsərrüfatının inkişafı və institusional bacarıqların artırılması” layihəsinin yekun seminarı keçirilib: [Elektron resurs] / URL:
3. Ekoloji təmiz kənd təsərrüfatı haqqında Azərbaycan Respublikasının Qanunu. Bakı, 13 iyun 2008 – [Elektron resurs] / URL: https://e-qanhttps://agro.gov.az/az/ news/azrbaycanda-ekoloj-tmz-knd-tsrrfatinin-nkafi-v-nsttusonal-bacariqlarin-artirilmasi-layhsnn-yekun-semnari-kerlib/.un.az/framework/15321.
4. Eynalov, H., Quliyev, Y. Aksoy, U., Boz, İ. Azərbaycanda orqanik kənd təsərrüfatı: Hazırkı durum və gələcək inkişaf potensialı. – Bakı, – 2018. – 106 s.
5. Бородастова, Е.В. Теоретический аппарат органического сельского хозяйства / Е.В. Бородастова // Аграрная наука и образование: проблемы и перспективы: Сборник статей Национальной научно-практической конференции, – Саратов, 28 марта – 01 2022, – с. 47-51.
6. Дадаев, Я.Э. Современные подходы к определению понятия органического сельского хозяйства // Вестник Чеченского государственного университета. – 2020. №2 (38), – с. 71–78.
7. Ершова, М.О. Органическое сельское хозяйство: история и современность / М.О. Ершова, С.Н. Семенов // Теория и практика инновационных технологий в АПК: Материалы национальной научно-практической конференции, – Воронеж, – 22–26 марта 2021, – с. 171-177.
8. Лукашук, Н.А. Зарубежный опыт развития органического сельскохозяйственного производства / Н.А. Лукашук, О.И. Родькин // Труды БГТУ. Серия 5: Экономика и управление. – 2017. № 1(196), – с. 185-189.
9. Магомедов, Н.Р. Развитие органического земледелия / Н.Р. Магомедов, А.А. Абдуллаев // Проблемы развития АПК региона. – 2021. № 4(48), – с. 117-121.
10. Папцов, А.Г. органическое сельское хозяйство ес: тенденции развития и опыт регулирования / А.Г. Папцов, Л.Г. Ахметшина // Агропродовольственная политика России. – 2014. № 8(32), – с. 80-84.
11. Свечникова, Т.М. Органическое сельское хозяйство: сущность и тенденции развития. Московский экономический журнал, – 2019. №8, – с.457-463

Эльнур Гара оглу Аллахвердиев
Доцент Азербайджанского Университета Кооперации,
E-mail:allahverdiyev.elnur33@mail.ru

Теоретические аспекты развития органического сельского хозяйства в условиях глобальных трансформаций

Резюме

Цель исследования - рассмотреть теоретические аспекты развития органического сельского хозяйства в условиях глобальных трансформаций. Раскрыты проблемы развития

органического сельского хозяйства и приведены механизмы их решения. Обобщены концептуальные подходы, обеспечивающие развитие органического сельского хозяйства в современных условиях. С учетом задач и приоритетов, вытекающих из глобальных вызовов, обосновывается важность более интенсивного развития органического сельского хозяйства.

Методология исследования в основном сформирована из таких методов, как научная абстракция, анализ, синтез, сравнение и обобщение. При этом было уделено внимание подходам в научных работах различных исследователей, связанных с развитием органического сельского хозяйства.

Практическое значение исследования – полученные в статье научно-практические инновации связаны с развитием сельского хозяйства страны в контексте глобальных вызовов современной эпохи, и в частности, с использованием мер по созданию органической структуры сельского хозяйства.

Результаты исследования - в условиях современных глобальных потрясений и новых реалий разработана целевая государственная программа, связанная с организацией и ускорением развития органического сельского хозяйства, даны направления применения механизмов действия.

Оригинальность и научная новизна исследования – в определении теоретико-методологических взглядов в соответствии с требованиями времени и их места на основе государственной политики в современную сложную эпоху. С учетом ресурсного потенциала страны и приоритетов модели экономического развития обеспечены концептуальные подходы к современной модели органического сельского хозяйства и определена значительная часть практических направлений, подготовлены рекомендации и предложения.

Ключевые слова: сельское хозяйство, органическое сельское хозяйство, органическая сельскохозяйственная продукция, проблемы эффективности сельского хозяйства, перспективы развития сельского хозяйства, глобальные трансформации, проблема продовольственной безопасности страны, глобальные проблемы продовольственной безопасности.

Elnur Gara Allahverdiev
Assistant professor of Azerbaijan Cooperation University,
Doctor of Philosophy in Economics,
E-mail: allahverdiyev.elnur33@mail.ru

Theoretical Aspects of The Development of Organic Agriculture in the Conditions of Global Transformations

Summary

The purpose of the research is to consider the theoretical aspects of the development of organic agriculture in the conditions of global transformations. The development problems of organic agriculture are explained and the mechanisms for solving them are given. Conceptual approaches that ensure the development of organic agriculture in modern times are summarized. Taking into account the tasks and priorities arising from global challenges, the importance of more intensive development of organic agriculture is justified.

Research methodology is mainly formed from methods such as scientific abstraction, analysis, synthesis, comparison and generalization. At the same time, attention was paid to the approaches in the scientific works of various researchers related to the development of organic agriculture.

The practical significance of the research - the scientific-practical innovations obtained in the article are related to the development of the country's agriculture in the context of global challenges in the modern era, and in particular, the use of the measures to create an organic agricultural structure.

The results of the research - in the conditions of current global upheavals and new realities, the development of targeted state programs related to the organization and acceleration of the development of organic agriculture, the directions of application of action mechanisms are given.

The originality and scientific novelty of the research - the determination of theoretical and methodological views in accordance with the requirements of the time and their place on the basis of state policy in the current complex era. Taking into account the resource potential of the country and the priorities of the economic development model, conceptual approaches to the modern organic agriculture model have been provided and a significant part of the practical directions have been determined, and recommendations and proposals have been prepared.

Keywords: agriculture, organic agriculture, organic agricultural products, agricultural efficiency problems, agricultural development prospects, global transformations, food security problem of the country, global food security problems.